**Yeni Yazarlar və Sənətçilər Qurumu**
**Association of New Writers and Artists**
**Организация Новых Писателей и Деятелей Исскуства**

Hüqüqi ünvan: **Bakı şəhəri Xaqani 25, Azərbaycan Yazıçılar Birliyi, 4 mərtəbə**
Yazışma: **331-ci otaq, Mətbuat pr., 529-cu məhəllə, Bakı, Az 1073, Azərbaycan R**
Tel.: **(+99412) 418 93 58; 438 03 17; (0-50) 213 40 43; e-mail: Hartyazar@yahoo.com**
**Hwww.yysq.azeriblog.comH ; Hwww.xariciedebiyyat.azeriblog.comH ;**

**N 10 / 14** **Bakı şəhəri, 01. 04. 2010**

***Azərbaycan Xalq Cümhuriyyəti - 92,***
***Xalq şairi Rəsul Rza – 100***

***YUBİLEYİMİZ!!!***

# X Bakı Kitab Bayramı

## Azərbaycanda İllik Milli Kulturoloji Tədbirlər Silsiləsi

**Azərbaycan Respublikasında və xaricdə fəaliyyət göstərən Nəşriyyat və Poliqrafiya, kitab yayımı və satışıyla məşğul olan qurumlara**

**IX Bakı Kitab Bayramı Kulturoloji Tədbirin Təşkilat Komitəsi tərəfindən**

**M Ü R A C İ Ə T**

**Dəyərli naşirlər, poliqrafçılar və kitab biliciləri!**
Azərbaycan Respublikası Mədəniyyət və Turzim Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, eləcə də Azərbaycan Yazıçılar Birliyinin təşkilati dəstəyi - tərəfdaşlığı ilə YYSQ artıq 12 ildir ölkəmizin ədəbi-mədəni həyatında xüsusi dəyər verilən Bakı Kitab Bayramı - Ümumrespublika İllik Kulturoloji Layihə - Tədbirlər silsiləsini həyata keçirir. Milli mədəniyyətimizi - çağdaş ədəbiyyatımızı inkişaf etdirmək, gələcək nəsillərə layiqincə çatdırmağı qarşısına məqsəd qoymuş YYSQ-nin www.yysq.azeriblog.com və **www.kitabxana.net** ünvanlı rəsmi İnternet saytlarında bu Kulturoloji Layihənin tarxi barədə geniş məlumatlarlar yer alıb.
Azərbaycan mədəniyyətinin, ədəbiyyatının və milli kitab sahəsinin inkişafında maraqlı olan Sizin kimi millətsevər ictimai xadim və dövlət adamının bizim müraciətimizə diqqətlə yanaşacağınızı nəzərə alıb, builki təklifimizi dəstəkləməyinizi, eləcə də ARGİN-nin Milli Kulturoloji Tədbirlər Silsiləsinin tərəfdaşı - himayəçisi olmağı xahiş edirik.
**Təşkilatımız, hərdəfəki kimi, bu il də sadalanan rəsmi dövlət qurumları ilə birgə, onlardan dəstək gözləyərək X Bakı Kitab Bayramı – Milli Kulturoloji Tədbirlər silsiləsini yüksək səviyyədə keçirməyi planlaşdırır.**
**Layihə aprel-sentyabr aylarını əhatə edir, Təşkilat Komitəsi mart ayından geniş fəaliyyət göstərir və silsilə tədbirlərə başlamışıq. Ölkəmizin ədəbi-mədəni ictimaiyyəti tərəfindən dəstəkləndiyini və maraqla qarşılandığını nəzərə alaraq, builki tədbiri, Prezident İlham Əliyev cənablarının məlum fərmanlarına uyğun olaraq, Azərbaycan Xalq**

**Cümhuriyyətinin 92, xalq şairi Rəsul Rzanın 100 illik yubileyi kimi əlamətdar hadisələrə həsr olunub.**
**Bu il mayın son həftəsində M.F.Axundov adına Milli Kitabxanada** əsas mərasiminin keçirilməsi nəzərdə tutulan **X Bakı Kitab Bayramı** ərəfəsində müxtəlif dövlət və ictimai qurumların iştirakı ilə milli nəşr mədəniyyəti - kitab yayımı problemlərinə, perspektivlərinə həsr olunmuş dəyirmi masa, eləcə də ədəbiyyatımızın, mədəniyyətimizin, kitab sahəsinin durumuyla bağlı başqa silsilə tədbirlər təşkil etməyi nəzərdə tutmuşuq.

## X Bakı Kitab Bayramı Kulturoloji Tədbirlər Silsiləsi çərçivəsində aşağıdakı istiqamətlərdə işlər görüləcək:

**- Mədəniyyətyönümlü QHT-lərin, gənclər təşkilatlarının, ali təhsil ocaqlarının iştirakıyla Dəyirmi masa, konfrans, yazarlarla oxucuların görüşlərini təşkil etmək;**
**- nəşriyyatların birbaşa iştirakı ilə yeni kitabların sərgisini keçirmək;**
**- Milli Kulturoloji Mükafat müsabiqəsini təşkil etmək;**
**- «İlin Kitabı» müsabiqəsini təşkil etmək;**
**- ötən ilin ən yaxşı kitablarını seçib mükafatlandırmaq;**
**- yazarlarla oxucuların, müəlliflərlə naşirlərin birbaşa ünsiyyətinə şərait yaratmaq;**
**- yeni ədəbi nəslin istedadlı nümayəndələrinin yaradıcılığının geniş təbliğ etmək;**
**- gənc yazarların nəşr olunmuş kitablarının sərgisi - nümayişi;**
**- Yazıçıların yeni əsərlərinin ictimai təqdimatı -müzakirəsini keçirmək;**
**- Uşaq nəşrlərinin sərgisi-nümayişi;**
**- Qaçqın məktəblərinin Kitabxanasına - balaca oxuculara yeni kitab sovqatını hazırlamaq;**
**- Milli Ordunun "N" saylı Hərbi hissəsinin kitabxanasına - əsgər və zabitlərə yeni kitabların hədiyyə edilməsi;**
**- milli kitab-nəşr mədəniyyətinin və çağdaş ədəbiyyatın inkişafına yardımçı olmaq;**
**- Azərbaycan mədəniyyətinin və çağdaş ədəbiyyatın zənginləşməsinə stimul vermək;**
**- bu ilin payızında Rusiyada keçiriləcək Beynəlxalq Moskva Kitab Sərgi-Yarmarkası çərçivəsində keçiriləcək MDB ölkələrinin VIII Beynəlxalq Kitab Sənəti Müsabiqəsinə göndərmək üçün dəyərli milli kitabları seçmək, Mədəniyyət və Turizm Nazirliyinə təqdim etmək.**

Onu da bildirək ki, tədbirin kütləviliyini təmin etməkdən ötrü ARGİN, Azərbaycan Yazıçılar Birliyinə ölkəmizdə fəaliyyət göstərən yazılı və elektron KİV-ə müraciət olunub və onların əksəriyyəti Kulturoloji Tədbirimizə texnixi-informatik dəstək verməyə hazırdır.
Milli kitab-nəşr mədəniyyətimizin ən uğurlu nümunələrini seçib dünyanın müxtəlif ölkələrində, həmçinin bu ilin sentyabrında Rusiya Federasiyasında keçiriləcək XXIII Beynəlxalq Moskva Kitab Sərgi-Yarmarkası çərçivəsində təşkil olunacaq mötəbər kulturoloji-intellektual kitab müsabiqəsinə təqdim ediləcək.
**2009-cu ildə AR Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə Rusiyaya – Beynəlxalq Müsabiqəyə göndərdiyimiz kitablardan üçü öz nominasiyasında əsas mükafata, digər biri isə ikinci diploma layiq görüldü. Bu barədə sizə ünvanladığımız məktublarda, eləcə də illik ictimai hesabatlarda və mətbuatda getmiş materiallarda geniş məlumatlar öz əksini tapıb.**
**Xatırladaq ki, Kitab Bayramının müxtəlif nominasiyalar üzrə (İlin nəsr, şeir, elm, tənqid, publisistik, tərcümə, dərslik, uşaq, albom və b. kitabı, İlin mədəniyyət qurumui, İlin xeyriyyəçisi, İlin ədəbi jurnalı, qəzeti, TV-si, İnternet saytı, İlin gənc yazarı, şairi, tənqidçisi, tərcüməçisi və b.) diplom və xüsusi mükafatları hər il qaliblərə təqdim edilir.**
**IX Bakı Kitab Bayramının** Münsiflər Heyəti tanınmış ədəbiyyat və mədəniyyət adamlarından təşkil olunub. Tədbirdə seçilən və qiymətləndirilən kitablar XXIII Beynəlxalq Moskva Kitab Sərgi-Yarmarkasına, həmçinin MDB ölkələri Beynəlxalq Kitab yarışmasına və başqa Beynəlxalq Kitab yarışmalarına, sərgilərə göndəriləcək.
Milli mədəniyyət və ədəbiyyata beynəlxalq qurumların və maliyyə fondlarının biganə münasibəti hamımıza məlumdur. Unutmayaq ki, qloballaşan dünyada mədəniyyəti, ədəbiyyatı, elmi, başqa sözlə, intellektual səviyyəsi zəif olan millətlərə yer yoxdur. Məhz

bütün bunları nəzərə alıb, YYSQ imkanı daxilində milli mədəniyyətin inkişafı və dünyada tanınması istiqamatəində fəaliyyətini genişləndirmək istəyir və bu işdə Sizin kimi millətsevər şəxsiyyətlərin dəstəyinə ehtiyacı vardır.
**Bizim maliyyə imkanlarımız məhdud olduğuna görə, ölkəmizdə fəaliyyət göstərən bir sıra qurumlara müraciət etmiş və bu məsələdə bizə yardımçı olmağı xahiş etmişik. Prezidentimiz cənab İlham Əliyevin də dəfələrlə təkrarladığı kimi, düşmən qonşularımız beynəlxalq səviyyədə Azərbaycana qarşı apardıqları ideoloji və informatik savaşa intellektual metodlarla cavab verilməlir. Biz də əlimizdən gələni edirik ki, bu istiqamətdə dövlət orqanlarına yardımçı olaq. Milli mədəniyyət və ədəbiyyata beynəlxalq qurumların və maliyyə fondlarının biganə münasibəti hamımıza məlumdur. Unutmayaq ki, qloballaşan dünyada mədəniyyəti, ədəbiyyatı, elmi, başqa sözlə, intellektual səviyyəsi zəif olan millətlərə yer yoxdur. Məhz bütün bunları nəzərə alıb, YYSQ imkanı daxilində milli mədəniyyətin inkişafı və dünyada tanınması istiqamatəində fəaliyyətini genişləndirmək istəyir və bu işdə millətsevər ziyalıların dəstəyinə ehtiyacı var.**

## Hörmətli naşirlər, poliqrafçılar və kitab biliciləri!

**Aprel-sentyabr ayları əhatə edəcək, X Bakı Kitab Bayramının** keçirilməsinə yardımçı olmanızı, həmçinin ölkə başçısının bağlı məlum sərəncamın müvafiq bəndlərinə uyğun olaraq, tədbirin təşkilatçıları qismində Kulturoloji Tədbirlər silsiləsinin bir hissəsinin maliyyələşdirilməsində, həmçinin **M.F.Axundov adına Milli Kitabxanada tədbirlər silsiləsinin** əsas mərasiminin təmtəraqlı keçirilməsində Yeni Yazarlar və Sənətçilər Qurumuna dəstək verməniz xahiş edirik. **Xatırlatmaq yerinə düşər ki, budəfəki Bayramımız yubiley tədbiri sayılır və biz ona xüsusi hazırlıq aparırıq...**

## Maliyyə və təşkilati dəstək vermək istəyənlər üçün

**Yeni Yazarlar və Sənətçilər Qurumunun «Texnikabank» ASC-dəki hesab nömrəsi: 38030066470001**
**VÖEN: 1700430481**
**«Texnikabank» ASC Kodu: 506872 VÖEN: 9900000681**
**Müxbir hesab: 0137010031031 SWİFT: TECIAZ22**

**Əsas:** YYSQ İdarə Heyətinin 02 mart 2010-**cu** il tarixli iclasının protokolu (I və VI məsələlər).
**Qoşma: YYSQ-nin 2009-cu il üçün İllik İctimai Hesabatı**
**(Elektron variantı bu saytlarda: www.artyazar.azeriblog.com, www.kitabxana.net, www.yysq.azeriblog.com, www.kitabbayrami.azeriblog.com).**

**Öncədən təşəkkürümüzü bildiririk və birgə işləmək arzusuyla!**

**X Bakı Kitab Bayramın Təşkilat Komitəsinin rəhbəri,**
**YYSQ sədri, yazıçı-kulturoloq: Aydın Xan (Əbilov)**

Əlaqə tel.: **(+99412) 418 93 58; 438 03 17;**
**(0-50) 213 40 43; (070) 317 80 01, (050) 310 48 74**

**E-mail: aydinxan@mail.ru, artyazar@yahoo.com, aydinkhan@box.az**